Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Düşmən ordusunda artan xaos - Qarabağ münaqişəsinin həllini tezləşdirəcək tutarlı amil...

**Dağlıq Qarabağ münaqişəsi ilə bağlı aparılan sülh danışıqları istənilən nəticəni verməyəcəyi təqdirdə məsələnin hərbi həll ehtimalı yüksək olaraq qalır. Amma bu vəziyyətdə Ermənistanı böyük problemlər gözləməsi düşmən ölkənin özündə də açıq qeyd olunur.**

Ən azı o baxımdan ki, Ermənistan ordusunda davam edən xaos bu ölkənin Azərbaycan qarşısında duruş gətirməsini mümkünsüz edir. Bunu erməni politoloq Suren Surenyants da xüsusi olaraq vurğulayır.

Ekspert bildirir ki, ordunun maddi-texniki təminatı, şəxsi heyətlə komplektləşdirilməsində böyük problem yaşandığı bir vaxtda qanunsuz davranışların da miqyası genişlənir:

"Orduda baş verən islahatlar barədə rəsmi dairələr geniş danışır. Amma reallıqda problemlər kifayət qədər böyükdür. Ermənistan silahlı qüvvələrində yenə də kriminal davranışlar saxlanılır, buna görə də biz dinc şəraitdə qətl və ya intiharlar nəticəsində əsgərlər itiririk". O qeyd edib ki, bəzi yüksək dərəcəli ordu rəsmilərinin vəzifələrdən, rütbələrdən məhrum olunmasının zamanıdır: "Bu, orduda baş verən bütün islahatları sıfıra bərabərləşdirən özünüməhvetmə rejimidir, real fəlakətdir. Əks təqdirdə bəzilərinin ölkə hakimiyyətinə, baş nazirə qarşı təxribat həyata keçirməsi təəssüratı yaranır". Digər erməni ekspert Aram Sarkisyan da orduda xaosun böyüdüyünü bildirir: "Orduda 18-19 yaşlı gənclərin mübahisəsi intihar və ya qətllə başa çatırsa, günahkar ilk növbədə hərbi hissənin zabitləridir. Ermənistanda təqsirsizlik prezumpsiyası var, yoxsa yoxdur? Ümumiyyətlə, ordu yaxşı və pisə qatışdırılmış təzahürlərlə cəmiyyətin güzgüsüdür".

Qeyd edək ki, erməni cəmiyyətində ordu məsələsinin yenidən müzakirə predmetinə çevrilməsinin əsas səbəbi bu günlərdə işğal altında olan Qarabağda ölmüş sıravi erməni əsgər Vahram Avaqyanın ölüm işi üzrə bağlıdır. Bu fonda açılmış cinayət işi çərçivəsində onun xidmət yoldaşları Davit Arakel Movsisyan, Xaçik Armen Qasparyan, Spartak Artur Avetisyan həbs olunub. Xatırladaq ki, 2020-ci il yanvarın 30-da Qarabağdakı hərbi hissələrdən birinin məcburi müddətli hərbi qulluqçusu, sıravi əsgər Vahram Avaqyan ona təhkim olunmuş AKM tipli avtomatdan öz sinə nahiyəsinə atəş açıb və güllə yarası almış vəziyyətdə hərbi hospitala yerləşdirilib, az sonra da ölüm qeydə alınıb. Erməni mediası yazır ki, baş verənlər cari il ərzində də ordunun itkilərinin sayının yüksək olacağını göstərir.

Diqqət həm də ona çəkilir ki, ötən il ərzində də ordunun itkiləri yüksək olub. Erməni mediasının məlumata görə, orduda 2019-cu il ərzində 14 nəfər müddətli xidmət hərbi qulluqçusu olmaqla, ümumilikdə 49 ölüm faktı qeydə alınıb. Qeyd edilən dövr ərzində Ermənistan müdafiə qurumları və İstintaq Komitəsi tərəfindən 19 hərbi qulluqçunun ölüm faktı barədə məlumat verilib. Qeydə alınmış 39 hadisə barədə ilk növbədə mətbuatdan məlumat əldə edilib. Bunlardan 9 hal barədə mətbuatdan, 21 hal barədə isə "Razm.info" saytının Ermənistan prokurorluğuna göndərdiyi sorğuların cavabı əsasında məlumat toplandığı qeyd edilir. Bildirilir ki, Ermənistan dövlət qurumları orduda baş verən ölüm hadisələrini "xidmətlə əlaqəli olan" və "xidmətlə əlaqəli olmayan" olaraq 2 qrupa ayırır. Xidmətlə əlaqəli olmadığı iddia edilən ölüm hadisələri barədə müdafiə qurumları məlumat yaymır. Ancaq prokurorluqdan daxil olan məlumatda qeyd edilir ki, 2019-cu il ərzində müdafiə qurumları tərəfindən "xidmətlə əlaqəli olan" kimi qeydə alınan 3 ölüm hadisəsi barədə məlumat verilməyib. Edqar Qriqoryan, Artsvik Qaribyan və Arayik Tsatryan adlı hərbi qulluqçuların ölüm hadisəsi "xidmətlə əlaqəli olan" ölüm faktı kimi qeydə alınıb, lakin açıqlanmayıb. Bunlar müdafiə qurumları tərəfindən ölüm hadisələrinin hələ də gizlədildiyini göstərir. Eyni zamanda, baş verənlər düşmən ordusunda xousun davam etdiyini də aydın nümayiş etdirir. Elə bundan irəli gəlir ki, Ermənistan ordusunun ağır durumda olmasını erməni ekspertlər, həmçinin ordu ilə əlaqəsi olanlar da açıq etiraf edir.

Baş verənlərlə bağlı Ermənistanın "1in.am" saytı da diqqəti ona yönəldir ki, Nikol Paşinyanın ölkəyə rəhbərlik etdiyi dövrdə də hərbi hissələrdə qeyri-döyüş şəraitində ölən əsgərlərin sayında artım müşahidə olunur. Özü də əvvəlki kimi, bu ölkənin silahlı qüvvələrində baş verən ölüm halları xalqdan gizli saxlanılır. Ekspert Eduard Melikyan isə bildirir ki, əsası Serj Sarkisyan tərəfindən qoyulan bu ənənə, yəni əsgərlərin alçaldılması, zabitlər tərəfindən döyülməsi, təhqir edilməsi bu gün də davam etdirilir. Bu da orduda intihar və özünəqəsd hallarının getdikcə çoxalmasına rəvac verir. Ekspert bildirir ki, orduda əsgərlərin bir-birini odlu silahla öldürməsi halları teztez baş verir:"Təəssüf ki, bütün bunlar xalqdan gizlədilir, ölənlərin və intihar edənlərin sayı barədə məlumat verilmir.

Son vaxtlar əsgərlərdən birinin digərinə atəş açması nəticəsində baş verən ölüm və ağır yaralanma hallarını ört-basdır etməyə çalışan Ermənistanın Müdafiə Nazirliyi bütün bunların, əsgər ölümünün guya atəşkəsin pozulması nəticəsində baş verdiyini iddia edir. Əslində, ölüm faktları silahlı qüvvələrdəki intizamsızlığın və özbaşınalığın nəticəsidir. Bir əsgər öz canına qıyırsa, deməli, bunun arxasında kifayət qədər müəmmalı, şübhəli hallar var. Bu müəmmalar heç vaxt araşdırılmayıb və baş verən ölüm hallarına görə bu vaxta qədər heç kəs cəzalandırılmayıb. Eyni zamanda, bunun kökündə əsgər-komandir inamsızlığı, etimadsızlığı və nizamnamədənkənar halların baş verdiyi, əsgərlərin yüksək rütbəli zabitlərin bağ evlərində qul kimi işlədilmələri dayanır. Ona görə də gənclər kütləvi surətdə hərbi xidmətdən yayınmağa çalışır. Korrupsiya ilə mübarizə səlahlı qüvvələrə keçməlidir. Bu təkcə qeyri-qanuni münasibətlərin kökünü kəsməyəcək, həm də gənclərin ölümünün qarşısını alacaq. Əks təqdirdə Bakının aşkar gücünü başımızın üzərində daim hiss edəcəyik". Hüquq müdafiəçisi Janna Aleksanyanın sözlərinə görə, qeyri-döyüş şəraitində əsgər ölümü ilə bağlı qaldırılan cinayət işlərinin hamısında bir səbəb göstərilir: xidməti vəzifəsini yerinə yetirərkən silahla düzgün davranma qaydalarını pozub. Bunlar hamısı Müdafiə Nazirliyinin əsgər ölümlərini ört-basdır etmək üçün uydurmalarıdır.

J.Aleksanyan bildirib ki, Nikol Paşinyanın ölkəyə rəhbərliyindən sonra orduda heç nə dəyişməyib. Əksinə, vəziyyət getdikcə pisləşir. Onun dediyinə görə, gənc əsgərlərin özünəqəsd hallarının əksəriyyəti Nikol Paşinyanın ölkəyə rəhbərliyindən sonra baş verib. Hüquq müdafiəçisi vurğulayır ki, valideynlər tərəfindən daxil olan şikayətlərin əksəriyyəti komandirlərin sıravi heyət üzərində zorakılıq hallarının olması, əsgərlərin alçaldılması və döyülməsi faktları təşkil edir. Bu səbəblərə görə də valideynlər bütün vasitələrlə övladlarını hərbi xidmətdən yayındırır, müxtəlif bəhanələrlə ölkədən çıxarırlar. Digər tərəfdən faktdır ki, hərbi xidmətə aparılan gənclərin sağlamlığı yetərincə yoxlanılmır. Gənc əsgərlər arasında psixi problemi, qıcolma və digər xəstəliyi olanlar xeyli saydadır. Lakin həmin xəstələri hərbi xidmətə göndərənlər cəzalandırılmır. Ordudakı özbaşınalıq, müəmmalı əsgər ölümləri Ermənistanda ictimai-siyasi vəziyyəti getdikcə gərginləşdirir. Artıq işğalçı ölkədə yeni etiraz aksiyaları baş qaldırır. Valideynlər bildirir ki, Paşinyan orduda nizam-intizam yaratmalı, quldurluq hallarına son qoymalı olsa da bunu etmir. Belə vəziyyətdə ermənilər açıq etiraf edir ki, Qarabağ münaqişəsinin hərbi həll halında Azərbaycan onlara böyük zərbə endirəcək. Elə rus hərbi ekspert Andrey Frolov da məsələyə bu prizmadan yanaşır:"Azərbaycan son 10 ildə hərbi potensial baxımından Ermənistanla öz arasında xeyli fərq yaradıb". Onun sözlərinə görə, Dağlıq Qarabağ münaqişəsinin həll edilməməsi Azərbaycan ordusunun inkişafına kifayət qədər ciddi vəsait ayırmağa sövq edir:"Silahlı Qüvvələrinin yeniləmə tempi baxımından Azərbaycan son illərdə MDB-nin aparıcı ölkələrindən birinə çevrilib. Azərbaycan həm Rusiyadan, həm də başqa ölkələrdən bahalı, ciddi, yaxşı xarakteristikalara malik silah sistemləri alır". Ekspertin sözlərinə görə, bu gün Ermənistanın Azərbaycanın texnoloji inkişafına təkbaşına cavab vermək imkanı yoxdur: "Ermənistanın son satınalmalarının hamısı Rusiyanın verdiyi kredit hesabına başa gəlib. Rusiya isə, öz növbəsində, tərəflər arasında bərabərlik yaratmağa, müəyyən balans formalaşdırmağa çalışır. Say, texnoloji və əlbəttə ki, inteqral baxımından Azərbaycan ordusu Ermənistan ordusundan üstündür".

Həqiqətən də bu gün Azərbaycanın güclü və sarsılmaz ordusu var. Ordunun döyüş hazırlığı səviyyəsinin artırılması, onun müasir hərbi texnika və vasitələrlə gücləndirilməsi, hərbi qulluqçuların sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində müvafiq tədbirlər həyata keçirilir. Bunu düşmən ölkənin hərbçiləri, hərbi ekspertləri də çıxışlarında dəfələrlə etiraf edib. Onlar bildirirlər ki, Azərbaycan Silahlı Qüvvələri hərbi potensialına görə Ermənistan ordusundan qat-qat güclüdür. Ermənilər bu fonda anlamalıdırlar ki, torpaqlarımızın işğalına son qoyulanadək onların başı üzərində daim müharibə təhlükəsi olacaq. Bu müharibə isə onlar üçün kifayət qədər dağıdıcı nəticələrə gətirib çıxaracaq.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**